*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 254-259* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.254*

## "Nəsimi" filmi və Naxçıvan çəkilişlərinin seçildiyi məkanlar

**Əfsanə Səfərova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: safarova_afsana45@mail.ru

**Annotasiya.** "Nəsimi" filmi Azərbaycan kino sənayesinin ən mühüm nailiyyətlərindən biri kimi qiymətləndirilir. Məqalədə tarixi-bioqrafik janrda çəkilmiş filmin çəkiliş prosesi, xüsusilə çəkiliş məkanları – Xanəgah kəndi və Əlincə qalasının tarixi-mədəni əhəmiyyəti araşdırılır. Naxçıvan bölgəsində aparılan çəkilişlər zamanı baş vermiş maraqlı hadisələr, yaradıcı heyətinin əməyi, eyni zamanda, filmdə iştirak edənlərin xatirələri tədqiqat predmeti kimi nəzərdən keçirilmişdir. Bu yanaşma filmi təkcə kino sənəti baxımından deyil, həm də mədəni-tarixi kontekst daxilində qiymətləndirməyə imkan yaradır.
**Açar sözlər:** Nəsmi, Naxçıvan, Xanəgah, Əlincə qalası, film, Rasim Balayev

**Məqalə tarixçəsi:** göndərilib – 27.05.2025; qəbul edilib – 11.06.2025

## The "Nasimi" movie and the places of shooting in Nakhichevan

**Afsana Safarova**
ANAS Institute of Literature named after Nizami Ganjavi
E-mail: safarova_afsana45@mail.ru

**Abstract.** The movie "Nasimi" is considered one of the most significant achievements of the Azerbaijani film industry. This article studies the production process of the historical-biographical film, with particular emphasis on the historical and cultural significance of the shooting locations – the village of Khanagah and the Alinja Fortress. The study examines noteworthy events that occurred during the filming in the Nakhchivan region, the work of the productive team, and the memories shared by those who participated in the production. This approach allows for an evaluation of the movie not only from a cinematic perspective but also within a broader cultural and historical context.
**Keywords:** Nasimi, Nakhichevan, Khanagah, the Alinja fortress, movie, Rasim Balayev

**Article history:** received – 27.05.2025; accepted – 11.06.2025

## Giriş / *Introduction*

Azərbaycan kinosunun parlaq nümunələrindən olan "Nəsimi" filmi 1973-cü ildə Xalq yazıçısı İsa Hüseynovun (Muğanna) ssenarisi əsasında rejissor Həsən Seyidbəylinin rejissorluğu ilə ərsəyə gəlmişdir. Tarixi-bioqrafik janrda çəkilmiş bu ekran əsəri Azərbaycan kino tarixində özünəməxsus mövqe tutur və milli-mədəni irsin kino vasitəsilə təqdim olunması baxımından mühüm əhəmiyyət daşıyır. Filmdə XIV-XV əsrlərdə yaşamış filosof-şair İmadəddin Nəsiminin həyat və yaradıcılığının bədii inikası verilmiş, onun mübarizələrlə dolu mənəvi dünyası ekran dili ilə yüksək səviyyədə əks etdirilmişdir. Tarixi şəxsiyyətin obrazını yaratmaq və onu kinoestetik prinsiplər əsasında təqdim etmək son dərəcə mürəkkəb və məsuliyyətli yaradıcılıq prosesi kimi qiymətləndirilə bilər.

Bu kontekstdə quruluşçu rejissor Həsən Seyidbəylinin yaradıcılıq töhfəsi xüsusi vurğulanmalıdır. Onun rejissor kimi intellektual dərinliyi və estetik baxış bucağı Nəsimi obrazının bədii təcəssümündə öz parlaq əksini tapmışdır. Seyidbəylinin yanaşması sayəsində film təkcə bir tarixi şəxsiyyətin həyat yolunu canlandırmır, dövrün fəlsəfi və ideoloji müstəvisini də auditoriyaya çatdırmağa nail olur.

**Nəsimi obrazının yaradılması və aktyor seçimi**

Böyük şairin poetik obrazını tarixi hadisələr fonunda, real cizgilərlə əks etdirmək kimi problemi ilə qarşılaşan rejissor, ilk növbədə, bu rolun ifaçısını müəyyənləşdirməklə filmin estetik konturlarını formalaşdırmağa başlamışdır. Bu məqsədlə aktyor Rasim Balayevi çəkilişlərə dəvət etmiş və bu seçim filmin gələcək taleyini həll edən əsas amillərdən birinə çevrilmişdir.

Qeyd edək ki, Nəsimi obrazı Rasim Balayevin kinoda ilk böyük işi idi. Filmdə Fəzlullah Nəiminin qızı Fatma obrazının ifaçısı, kinoaktrisa Xalidə Quliyeva "Nəsimi" filminin kadrarxası məqamlarından danışarkən rejissorun ciddi və tələbkar münasibətini xüsusi olaraq vurğulayır: "Demək olar ki, Həsən Seyidbəyli Rasim Balayevi Azərbaycan kino sənəti üçün kəşf etdi. Həsən müəllim onun ifasına çox ciddi yanaşırdı, həm də çox tələbkar idi. Çəkiliş prosesində rejissor bəzən əsəbləşirdi, qışqırırdı. Rasimin sıxıb suyunu çıxarırdı, ta ondan istədiyini alana qədər. Nəinki, Rasimə qarşı, hamımıza qarşı belə idi. İstədiyini alanadək suyumuz çıxırdı. Həsən Seyidbəyli işinin peşəkarı idi deyə bizdən də peşəkarlıq tələb edirdi. Bidiyiniz kimi, o, Azərbaycan kinosuna ən böyük həyat gətirdi, həyata bənzər kino estetikasını yaratdı" [1, s.14].

Həsən Seyidbəyli müsahibələrində Nəsimi obrazının təqdimatına yanaşmasını bu sözlərlə ifadə etmişdir: "Çılğın, istiqanlı, üsyankar bir şairin obrazını yaratmaq, belə bir şəxsiyyətin bütün təzadlı və gərgin ömrünü canlandırmaq gənc aktyor üçün son dərəcə çətindir. Bu rol aktyordan böyük həyat, ekran və səhnə təcrübəsi tələb olunur. Rasim həm zahiri görkəmi, həm də emosionallığı ilə istənilən tələbə uyğun gəlir. Onun üzündə nə isə qəribə bir qədimlik var" [2, s. 10].

Rasim Balayev bu səhnədə öz obrazının ötkəmliyini, şax qürurunu, fikrini gənclik ehtirası ilə söyləməsini əsas götürüb. O, ilkin aktyor təqdimində Nəsiminin bəlağətli danışığını, fikir dərinliyini onun poetik-dinamik hərəkətləri ilə birləşdirir. Aktyorun təqdimatında hərəkətlər zərif və lirik mahiyyətlidir

Film boyunca lirik Nəsimi, poetik ruhlu Nəsimi, çöhrəsi nurlu gənc Nəsimi hürifiliyin fəlsəfi mahiyyətini, bəşəri ideyalarını, mənəvi paklığa çağırışını şövq və ilhamla açıqlayır. Onun fikirlərində əsas tezislər bu cür formalaşır: "Əsgərin gücü qılıncında yox, etiqadda olmalıdır", "Həqiqət insanın özüdür". Hələlik o, əmindir ki, hökmdar bu çağırışlara anlayışla yanaşacaq və insanların əsarət buxovlarından azad olunması üçün hürufi mürşid və müridlərinin qüvvələrini birləşdirməyə dəstək verəcək.

Onun heyrətli baxışlarında işıq seli axır. Bu işıqda kamillik işartıları parlaqdır. Nəiminin qızı Fatimə (aktrisa Xalidə Qasımova) udda çalır. Udun təranələri altında Nəsimi öz şeirini oxuyur. Burada həm şeirin, həm də aktyorun üslubu həmahənglik yaradır. Aktyor bu dəfə obrazın daxili təbəddülatını həm gözlə, həm sifət cizgiləri, həm də səs ahəngi ilə tamaşaçıya çatdırır.

Üzünü məndən nihan etmək dilərsən,
etməgil!
Gözlərim yaşın rəvan etmək dilərsən,
etməgil!
Yandırırsan könlümü eşqinə, məlum
oldu kim,
Ani rüsvayi-cahan etmək dilərsən, etməgil!

Ekranda baxışlarından ülviyyət yağan, ağlı, dərrakəsi, fəlsəfə, məntiq, fiqh, təbiət, riyaziyyat elmlərini, dinlərin tarixini qavrama bacarığı, insanlara səmimi münasibəti ilə İmadəddini görürük. O, "Nəsimi" imzası ilə tanınıb sevilən şair kimi şöhrətlənir. Hürufilik təliminin qüdrətli sahiblərindən biri kimi tanınır.

**Filmin ideya xətti və fəlsəfi əsasları**

Filmdə Nəsimi obrazı yalnız şair kimi deyil, həm də fəlsəfi ideyaların daşıyıcısı olaraq təqdim edilir. Yuxarıda qeyd olunduğu kimi, onun ideyaları – "Əsgərin gücü qılıncında deyil, etiqadındadır", "Həqiqət insanın özüdür" filmin fundamental konseptlərini təşkil edir. İnsan

azadlığı, mənəvi kamillik və üsyankar ruh filmin əsas ideyasıdır. Bu baxımdan, "Nəsimi" sırf tarixi film olmaqla yanaşı, həm də dərin mənəvi-mədəni mesaj daşıyıcısıdır.

Rasim Balayev öz qəhrəmanını yumşaq, zərif hərəkət plastikası və lirik ifadə vasitələri ilə təqdim edir. Aktyor "həqq-təala insan oğlu özüdür" fikrini haraya çevirir. Bununla Nəsiminin fəlsəfi ideyasının məkan genişliyinin sərhəd "sındırmaları" başlayır.

"Nəsimi" tarixi filmdir. Bu cür filmləri çəkmək çətin idi. O mühiti yaratmaq üçün kostyumlar, obrazın dəqiq seçilməsi, interyer, hər şey ayrı-ayrılıqda şərt idi. Ekran əsərində kütləvi səhnələrin çoxluğu və realizmi Həsən müəllimin rəhbərliyi altında yüksək səviyyədə həyata keçirilmişdir. "Nəsimi"dən sonra çəkilən tarixi filmlər də bu qədər real, inandırıcı təsir bağışlamamışdır, çünki bu filmdə insan faktoru, insan ruhunun azadlığı və mənəvi dəyəri əsas yer tutur [3].

Rejissor Həsən Seyidbəyli bu filmi öz övladları qədər sevdiyini vurğulayaraq bildirirdi ki, onun ərsəyə gəlməsi üçün həyatının ən dəyərli illərini sərf edib. Bu münasibət "Nəsimi" filminə sənətkar həssaslığının və şəxsi bağlılığının bariz göstəricisidir. Filmdə hürufilərlə teymurilər arasında baş verən ideoloji və dünyagörüşü mübarizəsinin fonunda böyük şairin bütöv, canlı və real obrazı ustalıqla təqdim olunub [4, s. 5].

Çoxplanlı filmdə hürufilərin dini fanatizm və ehkamçılıqla, teymurilərlə ideoloji mübarizəsi, müxtəlif qütblərdə dayanan xarakterlərin çarpışmalarına həsr edilən bütün süjet xətləri yüksək sənətkarlıqla işlənmişdir. Ssenari müəllifi İsa Hüseynov əsəri yazarkən Nəsimi yaradıcılığını və onun çoxşaxəli şəxsiyyətini dərindən araşdırdığını qeyd etmişdir: "Nəsimi poeziyasını, şairin çoxcəhətli şəxsiyyətini öyrənərkən mən bir müəllif kimi, onda müasir gəncliyimizin tərbiyəsi üçün vacib olan cəhətləri daha qabarıq təsvir etməyə çalışmışam" [4, s. 5].

**Naxçıvan çəkilişləri və məkana verilən simvolik dəyər**

"Nəsimi" filminin çəkilişləri zamanı məkan seçimi mühüm əhəmiyyət kəsb edirdi. Filmin ideya-estetik mahiyyətinə uyğun olaraq Nəsiminin Azərbaycanda yaşadığı tarixi-mədəni mühitin canlandırılması üçün simvolik dəyərə malik məkanlar seçilməli idi. Suraxanı Atəşgahı, Şirvanşahlar sarayı, qədim karvansaralar kimi məkanlardan sonra 1973-cü ilin avqust ayında yaradıcı heyət çəkilişlər üçün Naxçıvana üz tutmuşdur. Səhnə əsərinin çəkilişlərinin həmin dövrdə hürufizmin yayıldığı bölgələrimizdən biri olan qədim Naxçıvanda aparılması filmə yeni-yeni çalarlar qatıb.

Filmin çəkilişləri üçün seçilmiş məkanlar – Əlincə qalası və Xanəgah kəndi tarixi və fəlsəfi baxımdan filmin ruhuna uyğun gəlmişdir. Hər iki məkan hürufiliyin yayıldığı bölgələr kimi xüsusi əhəmiyyət kəsb edir. Strateji və tarixi əhəmiyyətli Əlincə qalasının Teymurləngə qarşı 14 illik müqaviməti filmə xüsusi dramatik məzmun qatmışdır [5, s. 153].

Çəkilişlərin aparılacağı yer kimi muxtar respublikanın Culfa rayonunun ərazisində yerləşən Əlincə qalası və Əlincəçayın vadisi boyu Xanəgah kəndinə yaxın məkanların seçilməsi, təbii ki, tarixi baxımdan film üçün uyğun bir sahə idi. Ssenaridə kütləvi səhnələr olduğuna görə, buraya yerli sakinlərin də cəlb edilməsi qərara alınmışdı. Beləliklə, filmin çəkilişində naxçıvanlıların da fəal iştirak etməsi kütləvi səhnələrin daha canlı alınmasına şərait yaratmış, həmin kadrların inandırıcılığını və vizual təsir gücünü artırmışdır.

Naxçıvanda filmin ilk çəkilişləri Əlincəqalanın ətrafında aparılıb. Əlincə yüz illərlə Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinə xidmət etmiş, tarixdə, əsasən, Azərbaycan Atabəylərinin iqamət və xəzinə yeri kimi tanınmış, çağının ən güclü hərbi qüvvələrini məğlubiyyətə uğradan Böyük Cahangir Əmir Teymuru belə möhkəmliyi ilə heyrətləndirmişdir. Qala I-VI əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunub, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərib. Naxçıvanın Azərbaycan Atabəylər dövlətinin paytaxtı olduğu dövrdə Əlincəqalanın iqtisadi və siyasi mövqeyi əhəmiyyətli dərəcədə artıb [5, s.153].

Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini toplu halında nümayiş etdirən Əlincəqala bu gün ən yüksək səviyyədə bərpa olunub. Bərpa işləri zamanı Əlincəqalanın zirvəsinə yol çəkilib, qala divarları, bürclər, səngərlər və digər tikililər tarixi görünüşü saxlanılmaqla yenidən qurulmuşdur. Memarlıq xüsusiyyətləri və planlaşma məkan quruluşuna görə

Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalanın şərq və qərb darvazaları da bərpa edilərək əvvəlki görkəminə qaytarılıb. Qala divarlarında və zirvəyə gedən yolda müasir işıqlandırma sistemləri quraşdırılmışdır.

Əlincə qalasının bərpası xalqımızın çoxəsrlik tarix və mədəni irsinin gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır. Qalanın ərazisində yaradılan "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi isə bölgənin maddi-mədəniyyət nümunələrini nümayiş etdirərək sakinlərin həyat və qəhrəmanlıq tarixini əyani şəkildə təqdim edir.

"Nəsimi" filminin çəkildiyi Xanəgah kəndi də özünün tarixiliyi ilə seçilir. Xanəgah kəndi şeyx Fəzlullah Nəiminin dəfn olunduğu yer kimi filmə dərin simvolik məna qazandırmışdır. Bu məkan həm də bir sufi ibadətxanası – "xanəgah" funksiyasını yerinə yetirmiş və hürufi ideyalarının yayılmasında əhəmiyyətli rol oynamışdır [6].

Bəzi alimlərimiz bu adın mənbələrdə Xangah, Xanəgah, sonralar isə Xanağa şəklində işlənildiyini qeyd edirlər. "Xanəgah" ev mənası bildirən "xanə" sözünə "gah" şəkilçisinin artırılması yolu ilə əmələ gəlib. Kəndin "Xanəgah" adlandırılması hürufilik təriqətinin adı ilə bağlıdır. Böyük mütəfəkkir və şair Şeyx Fəzlullah Nəiminin də burada dəfn olunması "Xanəgah" sözünün hürufiliklə bağlı olduğunu təsdiqləyir. "Xanəgah" təriqət başçıları dəfn olunan, onlar üçün tikilən binalara, müqəddəs ocaqlara deyilir. Ona görə də tarixçi alim M.Nemətova yazır: "Kənddə ziyarətgah olduğundan bura "Xanəgah" adlanıb və kəndin əsasının qoyulması XIII əsrdən əvvəllərə aiddir [6].

Tanınmış filoloq, türkoloq və onomastika üzrə mütəxəssis Adil Bağırov yazır ki, el arasında kəndin Şıx, Şeyx piri, yaxud Şeyx Xorasan adlandırılması da Nəiminin adı ilə bağlıdır. Deyilənə görə, Nəiminin tərəfdarları sağlığında ona Şeyx Xorasan ("nur saçan Günəş", "Günəş bəxş edən") deyə müraciət edirmişlər.

Gəlinən qənaət odur ki, "Xanəgah" sözü "bir şeyx və ya mürşidin rəyasəti altında olan dərvişlərin yaşadıqları və ibadət etdikləri yer, təkyə" mənasındadır. Sufi qələndərləri buranı məbədgaha çevirib ibadətlə məşğul olduqlarına görə kəndə "Xanəgah – Xaniqah" adı verilib və canlı danışıq dilində bu ad "Xanağa" şəklinə düşüb. Son illər kəndin adının "Xanəgah" variantı rəsmiləşdirilib.

Filmin çəkildiyi yerlərlə tanış olan zaman bir daha şahid olursan ki, Naxçıvanda tarixi-mədəni irsimizə qayğı ilə yanaşılır, əcdadlarımızın miras qoyub getdiyi mədəni sərvətlərimiz gələcək nəsillər üçün qorunub saxlanılır. Şeyx Fəzlullah Nəiminin dəfn olunduğu Xanəgah Abidə Kompleksinin bərpası da bu sahədə görülən işlərin davamıdır. Naxçıvan memarlıq məktəbinin daha bir nümunəsi olan abidə XII-XV əsrlərə aid edilir. Arxiv materiallarında Xanəgahın XVIII əsrdə də fəaliyyət göstərdiyi qeyd olunur. Abidənin giriş baştağında Möminə xatun türbəsinin elementlərindən istifadə olunub. Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini burada dəfn ediblər. Xanəgah uzun müddət yaşayış, ibadət və zikr yeri olub, tarixin müxtəlif dövrlərində isə elm, təhsil və mədəniyyət mərkəzi kimi fəaliyyətini davam etdirib.

Xanəgah kəndinin ərazisində çəkilən səhnə ilə Əlinəcəqalanın ətrafındakı səhnələr filmdə birləşdirilib. Məsələn, filmdə ordunun hücumu zamanı Əlincəqalaya doğru qaçan insanlar səhnəsi qalanın yanında deyil, kəndin ərazisindəki "Sarı qayalar" deyilən yerdə və onların arxasındakı ərazilərdə çəkilib. Şeyx Fəzlullah Nəiminin öldürülməsi səhnəsi isə Xanəgah kəndi ərazisindən dağa doğru uzanan düzənlikdə lentə alınıb.

Filmdə Teymurləngin oğlu Miranşahla qarşılaşdığı səhnələr də bu gün tamaşaçılar tərəfindən maraqla izlənilir. Miranşahın Teymurdan aman diləməsi, Nəsimi ilə Teymur arasındakı məşhur dialoq səhnəsi də Xanəgah kəndinin ərazisində çəkilib. Həmin kadrlarda kənddən görünən əzəmətli Əlincə qalası diqqəti cəlb edir.

**Çəkiliş prosesi və yerli sakinlərin iştirakı**

"Nəsimi" filmində kütləvi səhnələrin çəkilişində yerli sakinlər fəal iştirak etmişdir. Filmdə epizodik rolda çıxış edən Xanəgah kənd sakini Əkrəm Səfərov (atam – *Ə.S.*) maraqlı bir xatirəsini bölüşərək deyirdi ki, Şeyx Nəiminin ölüm səhnəsinin çəkilişləri zamanı böyük sənətkar İsmayıl Osmanlının qollarından və ayaqlarından iplə atlara bağlanması ətrafda onu izləyən yerli sakinləri həyəcanlandırıb. Bəziləri hətta atların hərəkətə gətiriləcəyi və bədbəxt hadisənin baş

verəcəyi ehtimalını irəli sürmüşdür. Lakin Xanəgah kəndinin digər sakininin məlumatına görə, çəkilişdə kəsilmiş heyvanın bir hissəsi həmin atların ipinə bağlanaraq səhnənin reallaşdırılması təmin olunmuşdur ki, bu da insanların qorxusunu aradan qaldırmışdır. Onu da deyək ki, "Nəsimi" yeganə tarixi filmdir ki, orada dekorasiya elementlərindən istifadə edilməmişdir. Məsələn, "Babək", "Nizami", "Dədə Qorqud" filmlərində dekorasiya vasitələri geniş tətbiq olunmuşdur, amma "Nəsimi" filmi bütövlükdə təbii mühitdə, yəni naturada çəkilmiş və heç bir studiya şəraiti yaradılmamışdır. Bu isə filmin orijinallığını daha da artırmışdır.

**Naxçıvanda filmə olan ictimai maraq və sənədli qeydlər**

1973-cü ildə "Şərq qapısı" qəzetində dərc olunmuş rejissor Həsən Seyidbəyli ilə müsahibədə onun çəkilişlərin gedişi və qarşıya qoyulan məqsədlər barədə fikirləri əks olunmuşdur. "Nəsimi Əlincə qalası"nda sərlövhəli müsahibədə bildirilir ki, filmin çəkilişləri əsasən tarixi-mədəni əhəmiyyətə malik Əlincə qalasında aparılmışdır. Həsən Seyidbəyli qeyd edir ki, mövsüm şəraiti səbəbindən çəkilişlər bir qədər gecikmiş, lakin noyabr ayında işləri tamamlayacaqlarına ümid etmişdir. Rejissor Əlincə qalasında gedən döyüş səhnələri, Miranşahın aqibəti ilə bağlı epizodlar, Nəiminin ölüm səhnəsi, Nəsiminin öz müəllimi və sevgilisi ilə görüşləri, habelə digər mühüm səhnələrin çəkildiyini vurğulamışdır. Yazıda qeyd olunur ki, Əlincəçayın sahillərində qurulmuş çadırlar və alaçıqlar fonunda bir çox səhnələr uğurla tamamlanmışdır. Müsahibədə xüsusilə Teymurləngin hücumları, Miranşahla dialoqlar, Fəzlullah Nəiminin ölüm səhnəsi və digər dramatik hadisələrin həm Əlincə, həm də Xanəgah kəndində çəkildiyi vurğulanır.

Filmin çəkilişləri 1974-cü ildə başa çatmış və həmin il "Nəsimi" ekranlara çıxmışdır. Film VII Ümumittifaq Kino Festivalında tarixi mövzu üzrə ən yaxşı film mükafatına layiq görülmüş, həmçinin aktyor Rasim Balayev "Ən yaxşı kişi rolu" nominasiyasında mükafat qazanmışdır.

"Nəsimi" filmi həm sənət baxımından, həm də milli-mədəni irsin ekranlaşdırılmasında mühüm bir mərhələ sayılır. Bu filmlə ekranlara daşınan tarixi yaddaş, yalnızca ölkə daxilində deyil, beynəlxalq səviyyədə də böyük maraq doğurmuşdur. "Nəsimi"nin uğurla açdığı yolun davamı olaraq, 1979-cu ildə tamaşaçıların görüşünə gələn "Babək" filmi də monumental ruhu və çəkiliş məkanının – qədim Naxçıvan torpaqlarının estetik gözəlliyi ilə Azərbaycan kino tarixində özünəməxsus iz buraxmışdır. Xüsusilə vurğulanmalıdır ki, "Nəsimi" filmi təkcə bir şəxsiyyətin deyil, bütöv bir xalqın mübarizə əzmini, azadlıq və vətənpərvərlik ruhunu ekranlara daşıyaraq, Azərbaycan tarixinin önəmli səhifələrini dünya tamaşaçısına təqdim etməyi bacarmışdır.

## Nəticə / *Conclusion*

"Nəsimi" filmi Azərbaycan kino sənətinin nadir incilərindən biridir. Filmin uğuru yalnız rejissor və aktyor heyətinin peşəkarlığı ilə deyil, həm də çəkiliş məkanlarının doğru seçimi və tarixi yaddaşımıza edilən hörmətlə bağlıdır. Əlincə qalası və Xanəgah kəndi sadəcə dekorativ fon funksiyası daşımır, eyni zamanda, filmin fəlsəfi və ideoloji qatlarını dərinləşdirən mədəni-simvolik məkanlar kimi çıxış edir. Bu məkanların seçimi, onların tarix və mənəviyyatla bağlılığı, Nəsimi obrazının təqdimində mühüm rol oynamış, ekran əsərinin təsir gücünü və sənət dəyərini artırmışdır. Nəticə etibarilə, "Nəsimi" filmi təkcə bir şairin həyat yolunu deyil, həm də xalqın azadlıq, mənəvi oyanış və ideoloji mübarizə tarixini vizual-estetik dillə ifadə edən bədii sənəd kimi çıxış edir.

**Ədəbiyyat / *References***

1. Teymurləngin ordusunda çətir tutan "əsgər": Rasim Balayev və Xalidə Quliyeva "Nəsimi" filminin kadrarxası məqamlarından danışır //Azadlıq. 2015. 2 fevral. Mədəniyyət. 2018, 25 aprel. s.10.
2. Ayna. 19 iyun 2010, №22
3. "Xalq" qəzeti. 23 dekabr 2004. s.5.
4. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008. s. 492
5. Nemətova M. Azərbaycan pirləri. – Bakı: 1992

**Фильм "Насими" и локации съёмок в Нахчыванском регионе**

**Афсана Сафарова**
Институт литературы имени Н. Гянджеви НАНА
E-mail: safarova_afsana45@mail.ru

**Резюме**. Фильм "Насими" по праву считается одним из значимых достижений азербайджанского кинематографа. В данной статье исследуется процесс создания историко-биографической картины, с особым акцентом на историко-культурную ценность мест съёмок – села Ханагях и крепости Алинджа. В качестве объекта исследования рассматриваются как события, имевшие место в период съёмок в Нахчыванском регионе, так и творческий процесс киногруппы, воспоминания участников съёмок. Такой междисциплинарный подход позволяет осмыслить фильм не только как художественное произведение, но и как значимый источник для изучения культурно-исторического наследия Азербайджана.
**Ключевые слова:** Насими, Нахчыван, Ханагях, крепость Алинджа, кино, Расим Балаев